Xalq qəzeti.-2021.- 13 oktyabr.- S.4.

***Ötən il sentyabrın 27-də başlayan Vətən müharibəsi Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin şərəf və mübarizlik simvoluna çevrildi. Savaş getdiyi 44 gün ərzində hər bir vətəndaşımız möhtərəm Prezidentimizin vurğuladığı kimi, həmrəylik, birlik nümayiş etdirdi, bununla da xalqımız ölkəmizin ərazi bütövlüyünə, eyni zamanda, tarixi ədalətin bərpasına nail oldu, öz gücünü, ləyaqətini bütün dünyaya göstərdi.***

# Azərbaycanı Qələbəyə milli vəhdət və Vətən sevgisi qovuşdurdu




Bəli, artıq İkinci Qarabağ savaşı Azərbaycanın tarixində əbədi qalacaq, heç zaman unudulmayacaq bir hadisəyə dönüb. Çünki bu ölüm-dirim mübarizəsində xalq-iqtidar-ordu vəhdətinin, Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasətinin, qətiyyətinin, güclü iradəsinin sayəsində möhtəşəm zəfər əldə edilib. Buna bənzər möhtəşəm qələbə, uğur isə xalqımızın çoxəsrlik tarixində olmayıb.

Burada tarixi zəfərimizi şərtləndirən bir məqamı isə xüsusi qeyd etmək istərdim. Belə ki, Ermənistan bu müharibədə Azərbaycan xalqının, gəncliyinin Qarabağ sevgisinin, Vətən məhəbbətinin nə qədər güclü olduğunu dərk etməməsi səbəbindən rüsvayçı məğlubiyyətlə üzləşdi. Dövlətimizin başçısı çıxışlarının birində bildirdiyi kimi, “Onlar bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan gəncliyi nəyə qadirdir. Bilmirdilər ki, bizi o Qələbəyə aparan həm gücümüzdür, texniki təchizatımızdır, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi”.

Ümummilli lider Heydər Əliyevin ideyalarına daim sadiqlik nümayiş etdirən Prezident İlham Əliyev ölkəyə rəhbərliyinin bütün dönəmlərində Azərbaycan Silahlı Qüvvələrinin inkişafını daim diqqətdə saxlayıb, bu istiqamətdə uğurlu siyasət yürüdüb. Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilən təlimlər, döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması nəticəsində silahlı qüvvələrimiz dünyanın ən güclü orduları sırasında qərarlaşıb.

Azərbaycan İkinci Qarabağ müharibəsində milli həmrəyliyin, peşəkar rəhbərliyin, səmərəli hərbi strategiyanın və ordumuzun gücü hesabına düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi. Bununla da Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti ilə, şəhidlərimizin canı-qanı ilə bütün dünya Azərbaycanın şanlı qələbəsinə şahidlik etdi. Müxtəlif dairələrdən olan müntəzəm təzyiq və təhdidlərə baxmayaraq, Azərbaycan öz haqq savaşı uğrunda getdiyi yoldan bir addım olsa belə geri çəkilməyərək, zəfər çaldı. Bu parlaq qələbə sayəsində “Ermənistanın güclü ordusu var”, “erməni xalqı döyüşkən xalqdır”, “Azərbaycan xalqı döyüşə bilmir” kimi mif və əfsanələrə birdəfəlik son qoyuldu.

Azərbaycan Ordusu Vətən müharibəsində, həm də hərb tarixində yeni döyüş taktikalarının müəllifi kimi misilsiz şöhrət qazandı. Bəzi aparıcı Qərb mətbu orqanlarında, habelə ABŞ-ın Milli Müharibə Kollecinin (National War College) və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq MünasibətlərMəktəbinin analitik nəşrlərində silahlı qüvvələrimizin hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, Azərbaycanın qarşısında, hətta dünyanın ən aparıcı ölkəsi olsaydı belə, onun da qələbəyə heç bir şansı olmayacaqdı. Bu isə o deməkdir ki, Azərbaycan Ordusu istənilən çətin vəzifəni, mühüm tapşırığı icra etməyə qadirdir və bu həqiqət vurğulandığı kimi, İkinci Qarabağ müharibəsində öz təsdiqini tapdı.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərkən, şücaət, qəhrəmanlıq göstərən, vəzifə borcunu ləyaqət və vicdanla yerinə yetirən silahlı qüvvələrimizin hər bir əsgər və zabiti dövlətimizin başçısının müvafiq sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunub.

Vətən müharibəsində ölümün üzərinə qorxmadan, çəkinmədən gedərək, ərazi bütövlüyümüzün bərpasına nail olan, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımıza sancan, bu yolda canlarını fəda edən, şəhidlik zirvəsinə yüksələn əsgər və zabitlərimizin xatirəsi daim uca tutulur. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciətində söylədiyi fikirlər də bunun daha bir bariz ifadəsidir. Ölkə rəhbəri həmin müraciətində “Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq” deyərək, bildirdi: “Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq!.. Bu qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib”.

Dövlətimizin başçısı şəhidlərlə bərabər, döyüşlərdə şücaət göstərərkən, yaralanan əsgər və zabitlərimizə də diqqətini daim bəyan edir. “Mən hər zaman qazilərin yanında olacağam”,– deyən Prezident İlham Əliyev, əslində, bu sözlərlə cəmiyyətimizdə bütün müharibə iştirakçılarına olan münasibətini bildirir. Yaralanmış müharibə iştirakçılarının reabilitasiyası və onların sosial məsələlərinin həlli istiqamətində görülən işlər də sübut edir ki, dövlət hər zaman öz əsgərinin yanındadır. Şəhid və qazi ailələrinə dəstək göstərilməsində Azərbaycanda milli həmrəylik artıq bir ənənəyə çevrilib və bu məqsədlə bütün aidiyyəti dövlət qurumlarının potensialı səfərbər olunub.

Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında” 2 dekabr 2020-ci il tarixli Sərəncama əsasən respublikamızda Vətən müharibəsi qəhrəmanları minnətdarlıq hissi ilə anılır, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda canlarını fəda edən şəhidlərimizin ruhuna böyük ehtiram göstərilir. Şəhid ailələrinə, qazilərimizə dövlətin xüsusi diqqət və qayğısı isə cəmiyyətdə olduqca yüksək qiymətləndirilir, Azərbaycan xalqı Vətənin mübariz və qəhrəman övladları ilə fəxr edir.

Yeri gəlmişkən, Bakı Apellyasiya Məhkəməsində Anım Günü ilə bağlı keçirilən mərasimdə səsləndirilən fikirləri də xatırlatmaq istərdim. Qeyd edilib ki, 44 günlük Vətən müharibəsində ordumuzun qəhrəmanlığı, Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti ermənilərin və havadarlarının bölgədəki mənfur siyasətinin iflasa uğraması ilə nəticələndi. Ölkə rəhbəri torpaqlarımızın düşməndən təmizlənməsinə nail olmaqla tariximizdə heç bir dövlət başçısına nəsib olmayan möhtəşəm və tarixi zəfərə imza atdı.

Bu tarixi uğurla düşməndən qisas alındı, şəhidlərimizin qanı yerdə qalmadı. Vətənin bütövlüyü uğrunda mübarizədə mərdlik və şücaət göstərən şəhidlərimizin xatirəsini əbədiləşdirmək üçün parlaq qələbəmizdən dərhal sonra mühüm tədbirlər həyata keçirildi. Keçən il dekabrın 2-də Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi təsis edildi. İkinci Qarabağ müharibəsində həlak olan qəhrəman şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə bu il Anım Günündə dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyuldu. Həmin gün ölkə rəhbəri xalqa müraciətində Bakıda, şəhərimizin ən gözəl yerlərinin birində Vətən savaşı qəhrəmanlarının şərəfinə möhtəşəm abidə ucaldılacağını da bildirildi.

Bütün bunlar Prezident İlham Əliyevin şəhidlərimizin xatirəsini uca tutmasının, qazilərimizə, eləcə də bütün müharibə iştirakçılarına həssas münasibətinin təzahürüdür.

Bu gün öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edən Azərbaycan regionda yeni reallıqlar yaradıb. Bütün şərtləri diktə edən qalib ölkəmiz konstruktiv siyasətini, strateji əhəmiyyətli təklif və təşəbbüslərini regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunmasına yönəldib. Bununla bərabər, Azərbaycan, eyni zamanda, gücünü düşməndən təmizlənən ərazilərimizdə işğalçının 30 ilə yaxın bir müddətdə yerlə bir etdiyi şəhər və kəndlərimizin bərpasına yönəldib. Beynəlxalq aləm İkinci Qarabağ müharibəsində olduğu kimi, bu məsələdə də Azərbaycanın qətiyyətinin, söz-əməl vəhdətinin şahidi olur.

***Nurlan ƏSƏDOV,***
***Bakı Apellyasiya Məhkəməsinin məsləhətçisi***